# Nuhun izi ilə





Zaman-zaman çəkilmiş sənədli filmlər tarixin qiymətli gerçəkliklərini qoruyub saxlayır. Ona görə də bu filmlərə həmişə böyük maraq və sevgi ilə baxılır. Çünki bunlar tarixi öyrənmək baxımından çox dəyərli və qiymətli olur.

Dünən Beynəlxalq Muğam Mərkəzində Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə çəkilmiş "Nuhun izi ilə" sənədli filminin təqdimat mərasimi keçirildi. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğulların ruhu birdəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Çıxış üçün söz Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərova verildi. O dedi: "Bu gün təqdimatına yığışdığımız "Nuhun izi ilə" filmi Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunub. Ötən il dekabrın 30-da Naxçıvan Muxtar Respublikasının 100 illiyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti



İlham Əliyev sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı silsilə tədbirlər keçirilmişdir. Bu gün indiyə qədər keçirilmiş mədəni-kütləvi tədbilərə daha möhtəşəm biri də əlavə olunur. Təqdim olunacaq sənədli film UNESCO-nun layihəsi əsasında, həmçinin Azərbaycan Respublikasının İsveç Krallığındakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilmişdir. "Nuhun izi ilə" filminin müəllifi və rejissoru isveçli Mikael Silkeberqdir. Xatırladım ki, M.Silkeberq ilk əcnəbi rejissordur ki, Şuşa azad olunandan sonra bu şəhər haqqında film çəkmişdir. Hər iki film çox dəyərli və baxımlıdır. Olduqca sevindiricidir ki, Ulu Öndər Heydər Əliyevin qurub yaratdığı müstəqil Azərbaycan bütün sahələrdə möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında dinamik inkişaf edir. Bu gün təqdim olunan sənədli film böyük mədəniyyət hadisəsidir. Eyni zamanda bu, Ümummilli Lider Heydər Əliyevin həyatını, siyasi fəaliyyətini, irsini, həmçinin müstəqil Azərbaycanımızın şərəfli tarixini, zəngin mədəniyyətini dünyada ləyaqətlə təbliğ edən Heydər Əliyev Fonduna, onun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehiban xanım Əliyevaya gördüyü işlərə görə minnətdarlığın ifadəsidir. Bu gün hamımız Ulu Öndər Heydər Əliyev haqqında böyük sevgi, hörmət və ehtiramla danışırıq. Ulu Öndər Azərbaycanı bugünkü kimi güclü, qüdrətli görmək istəyirdi. Ümummilli Lider Heydər Əliyevin ruhu bu gün şaddır. Çünki bu böyük şəxsiyyətin arzu və istəklərini Azərbaycan Prezidenti İlham Əliyev uğurla həyata keçirir".

Sonra Azərbaycan Respublikasının UNESCO-dakı milli komissiyasının nümayəndəsi Mustafa Şabanov və rejissor Mikael Silkeberq çıxış edərək "Nuhun izi ilə" filminin çəkilişlərindən, ərsəyə gəlməsindən ətraflı söz açdılar.

Çıxışlar başa çatdıqdan sonra "Nuhun izi ilə" sənədli filmi təqdim olundu. Filmin çəkilişləri Haçadağ, Əshabi-Kəhf ziyarətgahı, Əlincə qalası, Ordubad rayonu, Gəmiqaya, Möminə Xatun türbəsi, Nuh peyğəmbərin türbəsi və digər məkanlarda aparılıb. Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş "Nuhun izi ilə" filmi tamaşaçılar tərəfindən böyük maraq və rəğbətlə qarşılanacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***İlham BABAYEV (foto)***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 22 dekabr (№ 283).- S.5.